# Ağdamda düşmənin törətdiyi dağıntılardan əsər-əlamət qalmayıb

***Bu il aprelin əvvəlində Milli Ordumuz işğalçılığı ilə başqalarının əlində oyuncağa çevrilmiş Ermənistanın Dağlıq Qarabağda, qoşunların təmas xəttində törətdiyi növbəti fitnəkarlığı anındaca dəf etdi, düşmənə özgə torpaqlarında at oynatmağın daha mümkün olmadığını qətiyyətlə göstərdi.***



Lakin sarsıdıcı zərbə almış düşmən ayın axırına doğru şil-küt edilmiş qüvvələrini toparlayaraq iki gecə qəfil yatmış dinc əhalini güclü artilleriya atəşinə tutdu, yeni insan faciələrinə və kütləvi dağıntılara bais oldu. Bu namərdlik işğalçılığı ilə öyünən erməni xalqının insanlığa zidd xislətini bir daha dünyaya göstərdi. Əlbəttə, həmin vəhşi aksiya ordumuzun düşmənə vurduğu aprel zərbəsinin önəmini və acısını qətiyyən azaltmadı. Üstəlik, xalqımızın döyüş ruhu, intiqam hissi bir az da yüksəldi.

O günlərdə biz jurnalistlər də cəbhə bölgəsində əhali ilə bir yerdə olduq, düşmənin törətdiyi qanlı, dağıdıcı əməlləri xalqımıza və dünyaya çatdırdıq. Çıxışlarımızla zərər çəkmiş adamları tezliklə hər şeyin əvvəlkindən də yaxşı vəziyyətə gətiriləcəyinə inandırmağa çalışdıq. İndi, necə deyərlər, vədə yetişib: doğrudan da, 3 ayda yüzlərlə ev, bina yenidən tikilib, əsaslı bərpa edilib, vurulmuş ziyan tamamilə aradan qaldırılıb.

Ağdam rayonuna da elə bu xoş xəbərin sorağı ilə gəldik. 3 ay əvvəl baş çəkdiyimiz, qəlbimizi ağrıdan dağıntıların ünvanlarını rayon rəhbərliyinin və inşaatçıların nümayəndələri ilə yenidən dolaşdıq. O vaxtkı hüznlü, qayğılı çöhrələrdə indiki rahatlığı, məmnunluğu görüb dövlətimizin qüdrətindən, xalqımızın dəyanətindən bir daha qürurlandıq. Mahrızlı kəndində Əliş Hüseynovun tamam yanmış evinin yerində tikilmiş abad evin qapısını açıb içəri girdik, yaradılmış yüksək rahatlığa ürəkdən sevindik. Teyyub Vəliyevin, Elxan Əliyevin ciddi ziyan dəymiş evlərində də əvvəlki bərbad mənzərədən əsər- əlamət qalmamışdı. Sarcalı kənd məktəbində nəinki ziyan aradan qaldırılmış, hətta təhsi ocağı əsaslı təmir edilmişdi. Əhmədağalı, Çıraqlı, Cəmənli, Zəngişalı, Rzalar, Qaradağlı, Evoğlu, Əfətli kəndlərində də düşmən həmləsindən dağılmış tikililərdə zəruri işlər görülmüşdü. Hətta hasarlar da bərpa edilmişdi.





**Ağdam RİH başçısının birinci müavini Zülfi Qasımov görüşdüyümüz adamların keçirdikləri sevinc və dərin razılıq hisslərini ifadə edərək dedi:**

– Bildiyiniz kimi, bu il aprelin 2-5-də və 27-dən 28-nə keçən gecə erməni silahlı qüvvələrinin Ağdamın təmas xəttinə yaxın məsafədə yerləşən yaşayış məntəqələrini intensiv artilleriya atəşinə tutması rayonumuzda fövqəladə vəziyyət yaratmışdı. Qəfil mərmi yağışı altından çıxmağa macal tapmayan 3 nəfər dinc sakin həlak olmuş, 14 adam yaralanmışdı. Bu zaman 150-dən artıq mal-qara tələf olmuş, 1 ev yanmış, bir çox yaşayış binası və ictimai obyekt dağılmış, ümumiyyətlə, 451 evə ziyan dəymişdi.

Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyeva cəbhə bölgəsində yaranmış gərgin vəziyyətlə yerində tanış olmaq üçün mayın 1-də rayonumuza da gəldilər və Mahrızlı kəndində düşən mərmidən yanan evə baxıb, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər. Dövlət başçısının və xanımının düşmənin atəş məsafəsində yerləşən zonaya gələrək dövlətimizin çətin vəziyyətə düşmüş vətəndaşlarının yanında olduğunu mərdanəliklə nümayiş etdirməsi əhalini vahimə və stressdən çıxartdı. Bu səfər adamlarda dəymiş ziyanın tezliklə aradan qaldırılacağına inam yaratdı. Doğrudan da, səhərisi gün ölkə rəhbəri "Erməni silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Həmin sənədə əsasən, dağıdılmış tikililərin bərpa edilməsi üçün Ağdam Rayon İcra Hakimiyyətinə 3 milyon manat vəsait ayrıldı.

Atəşkəs başlayan kimi rayon fövqəladə hallar komissiyasının üzvləri, yerli icra və bələdiyyə qurumlarının nümayəndələri mərmi və minaaxtaranlarla birlikdə hücuma məruz qalan əraziləri qarış- qarış gəzdilər. Partlamamış sursat zərərsizləşdirildi, əhaliyə və ayrı- ayrı qurumlara dəymiş ziyan yerindəcə öyrənildi. Görüləsi işlər barədə tədbirlər planı hazırlandı. Tikinti-bərpa işləri təcrübəli podrat təşkilatı olan "Tac" MMC-yə həvalə olundu. İnşaatçılar rayon təşkilatlarının fəal yardımı ilə gecəli-gündüzlü işə başladılar. Qərara aldıq ki, yayın həddindən artıq isti keçməsinə baxmayaraq, payız gəlməmiş, yağışlar başlamamış evləri uçmuş, zədələnmiş sakinləri mənzillərinə qaytaraq. Artıq işlər uğurla başa çatdırılmış, necə deyərlər, son pəncərələrin də şüşəsi salınmış, rəngləmə işləri də qurtarmışdır.

**"Tac" MMC-nin baş mühəndisi İlyas Əsgərov isə məlumat verdi ki,** 2 aydan bir az artıq müddətdə 8 məhv edilmiş ev yenidən tikilmiş, 15 qismən dağıdılmış mənzil isə əsaslı bərpa edilmişdir. 27 ciddi zərər çəkmiş evdə isə təmir aparılmışdır. Müxtəlif dərəcədə zədələnmiş 401 tikilidə zəruri işlər görülmüşdür. Bütün bu işlər sakinləri və rayon rəhbərliyini razı salacaq dərəcədə icra olunmuşdur. İnşaat işlərini rayon əhalisindən təşkil olunmuş, 300-dək mövsümi işçidən ibarət irili- xırdalı 44 briqadada həyata keçirmişdir.

Biz tikinti işlərinə başlayanda evləri dağılmış adamların ağır durumunu görüb bacardıqca sürətli, həm də keyfiyyətli iş qurduq. Tikinti işləri irəlilədikcə, adamların çöhrəsindəki sevinci gördükcə biz daha həvəslə, məsuliyyətlə işlədik. Bu layihə həm də, necə deyərlər, birbaşa dövlət başçısının nəzarəti altındadır. Odur ki, hər işi tələb olunan səviyyədə yerinə yetirmişik.

**Sonra rayon mərkəzi Quzanlı qəsəbəsinə qayıdıb Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədovla görüşdük. Rayon rəhbəri Prezident İlham Əliyevin cəbhə bölgəsində dağılmış evlərin bərpası ilə bağlı sərəncamının uğurla yerinə yetirildiyini öz gözlərimizlə gördüyümüzü yəqin edib bildirdi:**

– Sizin bu işləri görməyiniz xalqımızın da görməsi deməkdir. Kaş bu mənzərəni namərd düşmən də öz gözləri ilə görüb xəcil olaydı. Şübhəsiz, mediadan xəbər tutub heç nəyə nail olmadıqlarını anlayacaqlar və bir daha məğmun olacaqlar. Doğrudan da, dövlət başçısının birbaşa yardımı və nəzarəti altında qısa müddətdə 450-dən artıq dağıdılmış tikilinin əvvəlki vəziyyətinə gətirilməsi ölkəmizin gücünü bir daha düşmənə göstətir, onun belə rəzil əməllərinin puçluğunu sübut edir. Yağının namərdliklə yıxdıqlarını dövlətimiz öz vətəndaşına yüksək diqqət və qayğı ilə dikəltdi, təzələdi.

Təsərrüfat işlərinin qızğın vaxtında həyatın ahəngi alt-üst edilsə də, sonrakı dövrdə bütün qüvvələrimizi, imkanlarımızı səfərbər edib itkilərimizin əvəzini çıxdıq. Rayon icra hakimiyyətində yaradılmış tikinti briqadası vasitəsilə daxili imkanlar hesabına 121 məcburi köçkün ailəsinin evi təmir olundu. Bütün bu gərginliklərə baxmayaraq, ilin əvvəlindən rayonun sosial-iqtisadi inkişafı, tikinti, abadlıq, quruculuq sahəsində işlər pozulmadı.

Heydər Əliyev Mərkəzinin, Bayraq muzeyinin, Quzanlı qəsəbəsində 360 şagird yerlik məktəbin, Kənd Təsərrüfatı İdarəsinin, mərkəzi aptekin tikintisi, Heydər Əliyev parkının, Veteranlar evinin yenidən qurulması işləri uğurla davam etdirildi. Heydər Əliyev prospektindən Rayon İcra Hakimiyyətinə gedən yol abadlaşdırıldı, Mərkəzi meydan yenidən quruldu. Bayraq meydanı yerləşən Soltanbud təpəsində, Heydər Əliyev prospektində, Mərkəzi meydanda geniş yaşıllaşdırma işləri aparıldı.

Prezident İlham Əliyevin hər bir rayonda sənaye məhəlləsi yaradılması barədə tapşırığının yerinə yetirilməsini təmin etmək məqsədilə xalçaçılıq müəssiəsinin yaradılması üçün tədbirlər görüldü. Əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz, içməli və suvarma suyu ilə təmin olunması üçün bir sıra tədbirlər hazırlanıb həyata keçirildi, dağıdılmış kommunikasiyalar dərhal bərpa edildi. Hazırda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Ağdam rayonu üzrə nəzərdə tutulan 14 tədbirdən 12-si icra olunur.



İlin əvvəlindən rayonda 832 yeni iş yeri açılmış, ondan 341-i daimi, 491-i mövsümüdür. 337 nəfər fiziki şəxs sahibkar kimi biznesin xidmət, ticarət və emal sahəsi ilə məşğul olur. Rayonda əhalinin rifahının yaxşılaşdırılması, məhsul bolluğu yaratmaq üçün sahibkarlara əlverişli şərait yaradılmışdır. Məhsul istehsalında özəl sektorun xüsusi çəkisi 81 faiz təşkil edir. Ümumi məhsul istehsalının həcmi 58,6 milyon manat olmuş, 2015-ci ilin müvafiq dövü ilə müqayisədə 1,5 milyon manat və ya 1,8 faiz artmışdır.

"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və həmin sənədə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 oktyabr tarixli və 2011-ci il 21 fevral tarixli sərəncamları ilə təsdiq edilmiş əlavələrin icrası ilə əlaqədar Ağdam rayonu üzrə nəzərdə tutulmuş 32 tədbirdən 18-i icra edilmiş, hazırda 5 tədbir icra olunur.

**Başçı daha sonra qeyd etdi ki,** rayonun işğal olunmamış ərazisində olan 42759 hektar torpaq sahəsinin 34494 hektarı kənd təsərrüfatı təyinatlıdır. Yararlı torpaqların 30651 hektarında əkin aparılır. Bu ilin məhsulu üçün 14785 hektar sahədə buğda, 3055 hektar sahədə arpa əkilmişdir. Buğda sahəsindən 48403 ton, arpa sahəsindən 9166 ton məhsul əldə olunmuşdur. Orta məhsuldarlığı 32,7 sentner olmuşdur. Bu il rayonda 551 hektar sahədə pambıq əkilmişdir. 2,5 ton barama istehsal olunmuşdur. Pambıqçılığın və baramaçılığın inkişafı üçün daha ciddi işlər görülməsi nəzərdə tutulur.



Rayonda heyvandarlığın inkişafına xüsusi fikir verilir. İri malın sayı 40125 başa, davar 105257 başa çatdırılmışdır. Heyvandarlıq məhsullarının istehsalında da artım olmuşdur. Belə ki, ət istehsalı müvafiq dövrlə müqaysədə 53,9 ton artaraq 20885 tona, süd 460,9 ton artaraq 17021,1 tona çatdırılmış, yumurta 4 milyon 266 min ədəd, yun 157,1 ton olmuşdur.

**Müsahibimiz qarşıda duran vəzifələrdən də söz açıb bildirdi ki,** rayonun sosial-iqtisadi inkişafı sahəsində 2016-cı ilin sonuna qədər görüləsi işlər, həllivacib problemlər də çoxdur. Tikinti, quruculuq, abadlıq, yaşıllaşdırma sahəsindəki işlər, əhalinin həyat şəraitini, məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün tədbirlər icrasını gözləyir.

29 min nəfər əhalinin yaşadığı 1 qəsəbəni, 10 kəndi və 3 məcburi köçkün qəsəbəsini əhatə edən 25,3 kilomert uzunluğunda Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan, 5 kilometr uzunluğunda Əfətli-Hacıturalı Həsənxanlı avtomobil yollarının əsaslı təmirinin plana salınmasına, digər sahələrdə də başladığımız, icrasını vacib saydığımız işlərin həllinə nail olmalı, rayon üzrə çox mühüm əhəmiyyətə malik problemlərin həlli üçün lazımi tədbirləri görməliyik. Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək, rayonumuzun sosial-iqtisadi inkişafının yüksəldilməsi üçün lazım gələn bütün tədbirləri həyata keçirməliyik.

**Ağdamdan görülmüş ciddi işlərin, qarşıda duran zəruri və gerçək vəzifələrin doğurduğu yüksək əhvalla ayrıldıq. Ən əsası isə bir daha inandıq ki, bu torpağın adamları dəyanəti, zirəkliyi və yurdsevərliyi ilə Ağdamı düşmənin qarşısında alınmaz qalaya çevirmişlər.**

*Tahir AYDINOĞLU,*
*Ziyəddin SULTANOV,*
*"Xalq qəzeti"*